## ƏDV məqsədləri üçün elektron qeydiyyat

Dövlət orqanlarının elektron xidmətlərə keçidi bu gün ölkədə prioritet məsələlərdən sayılır və bu məsələ ölkə başçısının daim diqqət mərkəzindədir. Son illər həyata keçirilən işlər bu sahədə müsbət nəticələrin əldə olunduğunu deməyə əsas verir.

Bu sahədə hər zaman irəlidə gedən Vergilər Nazirliyi elektron xidmətlər sahəsində ciddi işlər həyata keçirib. Vergi ödəyicilərinin vaxtına qənaət olunması və daha rahat şəraitdə Vergilər Nazirliyinin xidmətlərindən istifadə etmək məqsədilə nazirliyin bir sıra xidmətləri elektronlaşdırılıb. Qəzetimizin əvvəlki nömrələrində Vergilər Nazirliyinin təqdim etdiyi elektron xidmətlərin bir neçəsi barədə yazmışıq. Bu nömrəmizdə isə ƏDV məqsədləri üçün elektron qeydiyyat barəsində danışacağıq. Öncə qeyd edək ki, bu xidmət hüquqi və fiziki şəxslərin, qeyri-rezidentin daimi nümayəndəliyinin, filial və bölməsinin ƏDV məqsədləri üçün elektron qeydiyyata alınmasını əhatə edir. Vergi ödəyicilərinin ƏDV məqsədləri üçün elektron formada qeydiyyatı yalnız Vergilər Nazirliyi tərəfindən həyata keçirilir və xidmət üçün heç bir ödəniş nəzərdə tutulmayıb. Xidmətin təqdim edildiyi elektron ünvandan ərizədə olan məlumatlar interaktiv şəkildə fərdi sahibkar tərəfindən sistemə daxil edilir.Ərizə iş vaxtı başa çatdıqdan və ya qeyri-iş günündə sistemə daxil edilibsə, bu halda onun icrası həmin gündən sonrakı ilk iş gününün əvvəlində həyata keçirilir. Xidmətdən yararlanmaq üçün istifadəçinin Vergilər Nazirliyi tərəfindən verilmiş şifrə, parolu və ya gücləndirilmiş elektron imzası olmalıdır. Bunlardan istifadə edərək sistemə daxil olduqda istifadəçinin təklif olunan ərizə formasını doldurmaq və təsdiq etmək imkanı yaranır.

Vergi ödəyicisinin ƏDV məqsədləri üçün qeydiyyata alınması ərizəsi İnternet Vergi İdarəsi portalının Online Kargüzarlıq bölümü üzərindən aparılır. «ƏDV-nin qeydiyyat ərizəsi» ni işləmək üçün yeni müraciət düyməsi sıxılır və açılan pəncərədə «kimə» siyahısından Vergilər Nazirliyi, «müraciət növü « siyahısından ərizə, «sənədin növü» siyahısından ƏDV qeydiyyatı ərizəsi seçilir və qəbul düyməsi sıxılır. Açılan ekranda qeydiyyat növü seçilir, qüvvəyə minmə tarixi daxil edilir və irəli düyməsi sıxılır. İstifadəçi məlumatların doğruluğuna əmin olduqdan sonra «qəbul» düyməsini, əks halda isə «imtina» düyməsini sıxır. Təsdiqdən sonra ekrana «ƏDV məqsədləri üçün qeydiyyat alınma haqqında ərizənin qəbul edildiyi» barədə bildiriş çıxır. Ödəyici tərəfindən göndərilən elektron ərizə onun «göndərdiklərim» qovluğuna düşür. O, buradan əməliyyat tarixçəsi vasitəsilə ərizəsinin Vergilər Nazirliyində icra vəziyyətini izləyə bilər. ƏDV məqsədləri üçün bildirişin kağız daşıyıcılarda alınması üçün səlahiyyətli şəxs tərəfindən şəxsiyyəti təsdiq edən sənədlə Vergilər Nazirliyinin müvafiq yerli orqanına müraciət edilməlidir. Ərizə məlumatları sistemə daxil edilərək istifadəçi tərəfindən təsdiqləndiyi andan sistemdə qeydiyyata alınmış olur və ona 16 rəqəmli qeydiyyat nömrəsi verilir.

Vergi ödəyicisinin ƏDV məqsədləri üçün qeydiyyatından ancaq elektron qeydiyyat anında onun ƏDV ödəyicisi olduğu halda imtina edilir. Vergi ödəyicisi ƏDV məqsədləri üçün elektron formada qeydiyyata alınmadıqda müvafiq vergi orqanına, eləcə də qanunvericiliyə uyğun olaraq məhkəməyə müraciət etmək hüququna malikdir.

AYTƏN